**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci tarixli 106 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 72 saylı Yardımlı-Masallı seçki dairəsindən Güllütəpə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Mirzəyev Elşad Şəmsəddin oğlu və digərləri Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsinin 78 və 79 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının olması barədə müraciətlərinə dairə seçki komissiyası tərəfindən cavab verilmədiyini bildirmiş, müvafiq tədbir görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddəsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatının tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq həmin müraciətə dair müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma prosesində müəyyən edilmişdir ki, E.Ş.Mirzəyevin və digərlərinin müraciətləri 72 saylı Yardımlı-Masallı seçki dairəsi dairə seçki komissiyasına daxil olmuş, dairə seçki komissiyası qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada qeyd edilən müraciətləri araşdıraraq müvafiq qərar qəbul etmiş və qərarların surəti poçt vasitəsi ilə şikayətçilərə göndərilmişdir. Ona görə də E.Ş.Mirzəyevin və digərlərinin müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 72 saylı Yardımlı-Masallı seçki dairəsindən Güllütəpə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Mirzəyev Elşad Şəmsəddin oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci tarixli 106 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |